DÖVLƏT VERGİ XİDMƏTİ

# Dividendlər üzrə vergi dərəcəsi 5 faizə endirildi

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

- Rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində **5 faiz** dərəcə ilə vergi tutulmalıdır.

**Nə dəyişdi?**

Dəyişiklikdən əvvəl bu vergi **10 faiz** dərəcə ilə tutulurdu.

Dövlət büdcəsinə ödənilməli olan vergilər barədə ətraflı məlumatla www.taxes.gov.az internet saytında tanış ola bilərsiniz.

BAKI — 2024

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

- Dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, yerli özünüidarəetmə orqanlarının və dövlətin adından yaradılan publik hüquqi şəxslərin dividend gəlirləri **5 faiz dərəcə** ilə vergiyə cəlb ediləcək.

**Nə dəyişdi?**

Dəyişiklikdən əvvəl qeyd edilən vergi ödəyicilərinə münasibətdə dividend gəlirlərinə görə vergi azadolması tətbiq olunurdu. Mərkəzi icra hakimiyyəti orqanlarının dividend gəlirlərinin vergiyə cəlb edilməsi ilə təsisçilərin (payçıların) mülkiyyət növündən asılı olmayaraq hər bir iştirakçı üçün bərabər iqtisadi şəraitin yaradılması məqsədilə sözügedən azadolma ləğv edilərək **5 faiz dərəcə ilə** vergi tutulması istiqamətində Vergi Məcəlləsində dəyişiklik edilmişdir.

**Məlumatınız olsun ki:**

- 2019-cu ilin 1 yanvar tarixindən ƏDV ödəyicisi olmayan mikro sahibkarlıq subyekti olan rezident müəssisənin təsisçisi (payçısı) və yaxud səhmdarları olan fiziki şəxslərin dividend gəlirləri müddətsiz olaraq **gəlir vergisindən azaddır;**
- 2023-cü il fevralın 1-dən etibarən **5 il** müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividendlər və faiz gəlirləri də gəlir vergisindən azad edilmişdir.

➔ Dividend gəlirləri üzrə verilmiş bu vergi güzəştləri vasitəsilə respublikamızın regionda əlverişli investisiya mühitinə malik ölkəyə çevrilməsinə təkan vermək, kapital bazarlarında səhmlərə investisiyanı təşviq etmək, kapital bazarı iştirakçısı olmayan investorlar üçün sabit və aşağı dərəcəli vergi mühitinin formalaşmasına nail olmaq kimi hədəflərə çatmaq məqsədilə Vergi Məcəlləsində yuxarıda qeyd olunmuş dəyişikliklər edilmişdir.